# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet №20 (1276) 05 iyun 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır


# ÇAĞDAŞ AZƏRBAYCAN TARİXŞÜNASLIĞININ BANİLƏRİNDƏN BİRİ HAQQINDA QISA HEKAYƏT




*Hacı HƏSƏNOV,*
***tarix üzrə fəlsəfə doktoru, professor, elm sahəsi üzrə Dövlət Mükafatı laureatı***


***Mahmud İsmayılov - çağdaş Azərbaycan tarixnəvisliyinin banilərindən biri haqqında qısa bir hekayət***

Sizin diqqətinizə təqdim olunan yazı bir aqil insan, bütün ömrünü balası və nəvələrinə, ailəsinə, yetirmələrinə, xalqına, Vətəninə mg Dövlətinə xidmətə həsr etmiş azman bir şəxsiyyətin həyat hekayətidir.

Azərbaycan MEA-nın müxbir üzvü, Yazıçılar İttifaqının üzvü, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Mahmud Ələbbas oğlu İsmayılov Güney və Quzey Azərbaycanda, habelə onun hüdudlarından da çox-çox uzaqlarda yaxşı tanılan, mənsub olduğu xalqın tarixi taleyinin tədqiqini öz şəxsi həyatının ayrılmaz tərkib hissəsinə çevirən, bu xalqın ağrı-acısını çəkmək üçün qələmindən əsirgəməyən görkəmli pedaqoq və istedadlı yazıçı olmuşdur. Bu müdrik ağsaqqal müasir Azərbaycan tarix elminin beşiyi başında duranlardan biri olmaqla yanaşı, bu ellə birlikdə boy atıb yüksəlmiş, xalqımızın haqlı olaraq fəxr etdiyi alim, yazıçı və şəxsiyyət səviyyəsinə ucalmışdır.

Onun həyatı, elmi, pedaqoji və ictimai fəaliyyəti müasir Azərbaycan ziyalılığının keçdiyi keşməkeşli, ağır, rəngarəng inkişaf yolunun bütün çalarlarını əks etdirən seçilmiş bir nümunədir.

Mahmud Ələbbas oğlu İsmayılov 1920-ci il sentyabrın 1-də Azərbaycanın ən qədim guşələrindən biri olan Şəkinin Gəncəlilər məhəlləsində anadan olmuşdur. Həyata göz açdığı və ömrünün ilk 14 ilini keçirdiyi, hər şeydən əvvəl duzlu lətifələri ilə məşhur olan bu tarixi şəhərin qədim əfsanələr hopmuş əsrarəngiz ruhu elə bil ki, onun bütün gələcək fəaliyyətini və düşüncələrini müəyyənləşdirən bir başlanğıc, bir maya rolunu oynamışdır.

1934-cü ildən onun həyatı və fəaliyyəti Bakı şəhəri ilə bağlı olmuşdur. 1937-ci il iyulun 14-də indiki 132 saylı Bakı şəhər orta məktəbini əla qiymətlərlə və xüsusi mükafatla başa vuran M. Ə. İsmayılov elə həmin il Azərbaycan dövlət Universitetin (indiki Bakı Dövlət Universitetinin) tarix fakültəsinə daxil olmuşdur. Hələ tələbə ikən "Azərnəşr" və "Uşaqgəncnəşr"də oxucu, korrektəçi və orfoqrafiyaçı vəzifələrində çalışmış, Azərbaycan Komsomolunun ştatdan kənar mühazirəçisi olmuşdur. 1941-ci ildə universitet təhsilini başa vuraraq qısa müddət ərzində Qusar rayonunun Ənik və Hil kəndlərindəki orta məktəblərdə tarix müəllimi və tədris hissə müdiri vəzifələrində çalışmışdır. Bu vaxtdan etibarən necə deyərlər müəllimlik M. Ə. İsmayılovun əsas peşələrindən biri olmuşdur. O, istər orta, istərsə də müxtəlif ali ixtisas məktəblərində biliyini, təcrübəsini və bacarığını şagirdlərinə və tələbələrinə, dissertantlarına və aspirantlarına yorulmadan öyrədtmişdir.

1942-ci ildə ordu sıralarına səfərbər edilən Mahmud müəllim müharibə ərzində sıravi əsgərdən rota komandiri vəzifəsinədək yüksəlmiş, döyüşən orduda olmuş, "Böyük Vətən müharibəsində iştirakına görə" medalı ilə təltifedilmişdir.

1946-cı ildə ordu sıralarından tərxis edildikdən sonra M. Ə. İsmayılov Azərbaycan SSR EA Tarix İnstitutuna laborant vəzifəsinə qəbul edilmiş və ömrünü birdəfəlik olaraq bu elm məbədi ilə bağlamışdır. Elə həmin il o, aspiranturaya daxil olmuş, burada oxuya-oxuya 1947-1948-ci illərdə eyni zamanda "Azərbaycan gəncləri" qəzetində ədəbi işçi və təbliğat şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Onun ilk elmi axtarışlarının bəhrələri də məhz bu qəzetin səhifələrində işıq üzü görmüşdür. 1946-cı ildə bu qəzetdə bir-birinin ardınca onun "Bakıda 1903-cü il iyul tətili", "Əlağa Şıxlinski", "Lado Ketsxhoveli", "Azərbaycanın böyük dövlət xadimi Şirvanşah İbrahim" adlı məqalələri nəşr edilmişdir.

1949-cu ildə, aspirantura müddətinin qurtarmasına hələ yarım il qalmış M. Ə. İsmayılov "Azərbaycan neft sənayesində iltizam sisteminin ləğv edilməsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsini almışdır. Bu dissertasiya müasir tarixşünaslığımızda Azərbaycanın iqtisadiyyatının ən mühüm sahələrindən biri olan neft sənayesinin inkişafı tarixində dönüş mərhələsi rolunu oynamış bir hadisənin yerinə və oynadığı rola həsr edilmiş ilk sanballı əsər idi.

Həmin dissertasiya neft sənayesində keyfiyyətcə yeni inkişaf mərhələsinə sıçrayış üçün bir növ trampolin rolu oynamış prosesinin elmi cəhətdən araşdırılmasına həsr olunmuşdur.

XX əsrin 40-cı illərinin sonu - 50-ci illərinin əvvəllərində mətbuatdakı işi və pedaqoji fəaliyyətini (1949-1951-ci illərdə o, həmçinin Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun baş müəllimi olmuşdur) Tarix İnstitutundakı baş elmi işçi və yerli komitənin sədri vəzifələrini bacarıqla əlaqələndirən Mahmud müəllimin elmi axtarışları da mövzu əhatəliliyi ilə seçilirdi. Azərbaycan ərazisində qədim saklar dövründən tutmuş Şirvanşah İbrahim dövrünə qədər, oradan da Oktyabr çevrilişi mövzusuna qədər çox müxtəlif problemlərə həsr olunmuş əsərləri deyilənlərə sübutdur.

Artıq 50-ci illərin əvvəllərindən M. Ə. İsmayılovun alim marağının həm başlıca dövrü - XIX-XX əsrin əvvəlləri, həm də başlıca sahəsi - kənd təsərrüfatının tarixi müəyyənləşmişdir. 1952-ci ildə Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsinə başçılıq etməyə başlayan Mahmud müəllim ömrünün sonunadək öz həyatını bu dərəcə, bu şöbə ilə bağlamış, öz müəllimi və elmi rəhbəri akademik Əlisöhbət Sumbatzadə ilə birlikdə Azərbaycanın XIX-XX əsrin əvvəlləri iqtisadiyyatını öyrənən elmi məktəbin yaradıcılarından biri olmuşdur. Onun elmi maraq dairəsi öz genişliyi və rəngarəngliyini saxlasa da, bu dövrdən etibarən uzun müddət ərzində başlıca diqqət XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan kəndinin müxtəlif problemlərinin tədqiqinə yönəldilir. Artıq 1955-ci ildə "Birinci rus inqilabı illərində Azərbaycanda kəndli hərəkatı" adlı kitabı çapdan çıxmışdır.



"XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda üzümçülük və şərab istehsalı sahələrində kapitalizmin inkişafına dair" (Azərbaycan EA-nın Xəbərləri, 1956, №4), "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda torpaq mülkiyyəti və torpaqdan istifadə" (Azərb. EA Tarix İnstitutunun Əsərləri, 13-cü c., B., 1958), "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatının texniki təchizatı" (Azərb. EA-nın Xəbərləri, 1958, №4), "XIX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatında muzdlu əmək" məqalələri də məhz bu problemə həsr olunmuşdur.

M.Ə.İsmayılovun digər müəlliflərlə birlikdə "Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun iqtisadiyyat, sosial və mədəniyyət sahələrində nəticələri" (B., 1957) adlı kitab üzərindəki işi də başlıca olaraq həmin dövrün iqtisadi problemlərindən bəhs edir.

*(Davamı 3-cü səhifədə)*

# ÇAĞDAŞ AZƏRBAYCAN TARİXŞÜNASLIĞININ BANİLƏRİNDƏN BİRİ HAQQINDA QISA HEKAYƏT

*(Əvvəli 1-ci səhifədə)*

Qeyd etmək lazımdır ki, bu problemlərin tədqiqində özündən əvvəlki müxtəlif müəlliflərin əməyinə də layiqli qiymət verən, öz elmi sələflərindən alınmış dərsləri nəzərə alan Mahmud müəllim eyni zamanda tədqiqat problemlərinə bir qayda olaraq yeniləşən mövqedən yanaşmış, çox vaxt da müxtəlif maraqlı məsələlərin araşdırılması sahəsində məhz ilk addımları ataraq tədqiqatçıların diqqətini məhz belə mövzulara yönəltmişdir. Məsələn, onun 1957-ci ildə nəşr olunmuş iri həcmli (4 ç.v.) "Azərbaycanın dövlət kəndliləri XIX əsrin sonunda" (Azərb. EA Tarix İnstitutunun əsərləri, XI c.) məqaləsini misal gətirmək kifayətdir. Məqalədə ilk dəfə olaraq oktyabraqədərki dövrdə Azərbaycanın kənd istehsalçılarının böyük əksəriyyətini təşkil edən xəzinə kəndlilərinin sosial-iqtisadi və siyasi həyatının müxtəlif problemləri qaldırılaraq tədqiq olunmuşdur. Məqalənin nəşrindən keçən müddət ərzində Azərbaycanın dövlət kəndinin XIX əsrin sonu - XX əsrin əvvəlləri dövrü tarixi sahəsində müxtəlif doktorluq, namizədlik dissertasiyaları müdafiə olunsa da, müxtəlif əsərlər yazılsa da, Mahmud müəllimin həmin sanballı məqaləsində qaldırılmış problemlərin tədqiqatının tam kamil başa çatdığını söyləmək, dövlət kəndinin öyrənilməsi işinə nöqtə qoymaq, fikrimizcə, hələ çox tezdir. Onun Özünün də bu qəbildən olan əsərləri vardır.

M.Ə.İsmayılovun 1960-cı ildə çapdan çıxan "XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı" adlı monoqrafiyası isə onun bu sahədə uzun illər boyu apardığı tədqiqatların bir növ məntiqi elmi yekunu olmuşdur. Artıq bu dövrdə oxucu kütləsi akademik Ə. S. Sumbatzadənin "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" adlı əsaslı və çoxsahəli monoqrafiyası ilə tanış idi. Mahmud müəllimin yeni kitabı isə, onun özünün dediyi kimi, xronologiya və mövzu etibarı ilə Ə. S. Sumbatzadənin yuxarıda adı çəkilən monoqrafiyasının davamı idi. Müəllif, əsərinin girişində özünün göstərdiyi kimi, XX əsrin əvvəllərində kənd təsərrüfatının bütün sahələrinin inkişaf dinamikasını əhatə etmiş, kənd təsərrüfatının inkişafına bütün tarixi prosesin gedişi ilə əlaqəli şəkildə nəzər salmış, yerli qaldığı xüsusi tədqiqat tələb edən bir sıra məsələlərə ümumi şəkildə toxunmuşdur.

Artıq 1961-ci ildə M.Ə.İsmayılov Azərbaycanın kənd təsərrüfatında kapitalizmin inkişafı mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almış, az sonra (1963-cü ildə) isə professor adına layiq görülmüşdür.

O, bundan sonra da bu sahədə elmi axtarışlarını dayandırmamış, bir qədər sonra daha bir sanballı əsərini elmi ictimaiyyət və geniş oxucu kütləsinin mühakiməsinə təqdim etmişdir. "XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatında kapitalizm" (B., 1964) adlandırılmış bu monoqrafiyada öz qarşısına haqqında danışılan dövrdə kənd təsərrüfatının vəziyyəti və burada kapitalist istehsal münasibətlərinin inkişafını göstərmək məqsədini qoyan müəllif, hər şeydən əvvəl diqqətini məhsuldar qüvvələrin inkişafına yönəltmiş, istehsal münasibətlərini və Azərbaycanın kəndinin aqrar quruluşunu, habelə torpaq sahibliyi və torpaqdan istifadə, feodal münasibətlərinin dağılması, köhnə istehsal münasibətləri içərisindən yeni kapitalist münasibətlərinin inkişafı, kəndlilərin təbəqələşməsi, yeni siniflərin formalaşması kimi mühüm məsələləri tədqiq edərək göstərmişdir ki, bu dövrdə Azərbaycanın kənd təsərrüfatının başlıca inkişaf istiqaməti, əsasən, bazarla əlaqələrinin güclənməsi, onun rayonlar və sahələr üzrə ixtisaslaşması və əmtəə istehsalının güclü yüksəlişindən ibarət idi. Bütün bunlar da ilk növbədə burada istehsal olunan kənd təsərrüfatı məhsullarına dünya və Rusiya imperiyası bazarlarında tələbatın artımı ilə şərtlənirdi. Haqqında danışılan əsərin başlıca mövzusu ondan ibarətdir ki, burada ilk dəfə olaraq, Bakı çıxılmaq şərti ilə Azərbaycanın, xüsusilə də Azərbaycan kəndinin başdan-başa feodal-patriarxal ölkə olması barəsində çoxdan bəri tarixşünaslıqda (həm İttifaq, həm də Azərbaycan tarixşünaslığında) öz köklərini elmdən çox uzaq olan, lakin möhkəm siyasi mövcud olan, konjunkturaya söykənən və bir çox müəlliflərin dörd əllə yapışdıqları mənbəyə əsaslanan qeyri-elmi konsepsiya əsaslı surətdə darmadağın edilir və sübut olunur ki, Azərbaycanın kənd təsərrüfatı iqtisadiyyatı bütün dünya sivilizasiyasının getdiyi yolla həmahəng addımlamışdır.

M.Ə. İsmayılov bundan sonra da aqrar münasibətlər tarixinin tədqiqi sahəsində işini davam etdirərək "XIX-XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatında əmtəə istehsalı və kapitalizm", "İmperializm dövründə Azərbaycan kənd təsərrüfatında çoxukladlılıq", "Cənubi Qafqazda kənd proletariatının formalaşması" və s. mövzularda Zaqafqaziya və Ümumittifaq sessiyalarında çıxışlar etmişdir. Bu dövrdə onun qəzetlərdə çıxmış, respublika və ümumittifaq elmi mətbuatında nəşr olunmuş iki məqaləsi xüsusilə qeyd edilməlidir. Biz oktyabradək olan dövrdə Azərbaycan maldarlığının xarakterinə həsr edilmiş məqalələri nəzərdə tuturuq. Məlumdur ki, həm rus, həm də sovet (o cümlədən bəzi Azərbaycan) tarixçiləri iddia edirdilər ki, Azərbaycan maldarlığı köçəri xarakterdə olmuşdur. Mahmud müəllim təkzibolunmaz dəlillərlə, anlaşıqlı dildə sübut etdi ki, daimi yaşayış məskənlərinə malik, maldarlıqla yanaşı əkinçiliklə məşğul olan əhalini köçəri adlandırmaq tarixi gerçəkliyi təhrif etməkdir. O, göstərdi ki, Azərbaycanda heç vaxt klassik mənada köçəri əhali olmamışdır, maldarlıqla məşğul olan tərəkəmə əhalisinin təsərrüfatı isə köçəri yox, köçmə xarakteri daşımışdır.

M.Ə.İsmayılov kənd təsərrüfatının tarixi ilə yaxından məşğul olmaqla yanaşı, vaxtilə böyük elm yolunda ilk addımlarını basdığı zaman tədqiq etdiyi sahəni də unutmurdu. Onun 1976-cı ildə "Elm" nəşriyyatı tərəfindən buraxılmış "XX əsrin əvvəllərində Bakı sənayesi" adlı monoqrafiyasında Bakı rayonunun, neft sənayesi çıxılmaq şərtilə, demək olar ki, bütün istehsal sahələri - mexaniki istehsal, maşınqayırma, tikinti, yunçuluq, yeyinti və b. sənaye sahələrinin tarixi öyrənilmişdir. Bütün bunların tədqiqi imperializm dövründə Azərbaycanın burjuaziyasının tarixi, milli kapitalın Bakı iqtisadi həyatında rolu və s. məsələlərin araşdırılması üçün çox mühüm əhəmiyyətə malikdir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrinin tarixi üzrə Mahmud müəllim tərəfindən uzun illər boyu aparılmış tədqiqatlar özünün bir növ məntiqi yekununu onun 1982-ci ildə nəşr olunmuş "İmperializm dövründə Azərbaycanın sosial-iqtisadi strukturu" adlı monoqrafiyasında tapmışdır. Kitabda həm müəllifin özünün əsərlərinə, həm də son dövrdə meydana çıxmış digər tədqiqatlara əsaslanmaqla Şimali Azərbaycanın imperializm dövründəki sosial-iqtisadi inkişafının səviyyəsi barəsində hələ 60-cı illərdə tarixşünaslığımızda özünə möhkəm yer tutan qeyri-obyektiv təsəvvürlər alt-üst edilməklə yanaşı, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi strukturunun ilk, dolğun və bitkin mənzərəsi ustalıqla yaradılmışdır. Bu əsər Azərbaycanın yeni tarixini öyrənən elmi məktəbə - o məktəbə ki, Mahmud müəllim özü bu məktəbin yaradıcısı və başlıca aparıcı tədqiqatçılarından biridir - aiddir.

Mənsub olduğu xalqın vətənpərvər oğullarından biri kimi M.Ə.İsmayılov Azərbaycan tarixi üzrə müxtəlif ümumiləşdirici əsərlərin, elmi və populyar vəsaitlərin, dərsliklərin və s.-nin çatışmazlıqlarının aradan qaldırılması uğrunda yorulmadan çalışan müəlliflərdən biridir. Bu baxımdan ilk növbədə, əlbəttə ki, onun üçcildlik "Azərbaycan tarixi"nin hazırlanması sahəsindəki təşkilatçılıq işini qeyd etmək lazımdır. Azərbaycan tarixi üzrə müasir dövrdə hazırlanmış ilk belə sanballı, ümumiləşdirici əsərin ikinci cildinin meydana çıxmasında Mahmud müəllimin xidmətləri xüsusilə böyükdür. O, 1979-cu ildə Azərbaycan EA Tarix İnstitutu tərəfindən çap etdirilmiş bircildlik "Azərbaycan tarixi"nin də əsas müəlliflərindən biri olmuşdur. Həmin institutda hazırlanan olan yeddi cildlik "Azərbaycan tarixi" üzrə də M.Ə.İsmayılov xeyli iş görmüşdür. O, çoxcildliyin Baş redaksiya şurasının üzvü, IV və V cildlərin baş redaktoru olmaqla yanaşı bu cildlərin əsas müəlliflərindən biri kimi, və başqa müəlliflərlə birlikdə ümumi həcmi təxminən 20 çap vərəqi olan mətni yazmış, cildlərin başdan-başa yenidən işlənilməsini yerinə yetirmişdir. M.Ə.İsmayılovun 1992-ci ildə "Azərbaycan tarixi" adlı ümumiləşdirici əsəri çapdan çıxmışdır. Bundan əlavə, Mahmud müəllim XIX-XX əsrin əvvəlləri tarixi üzrə müxtəlif xəritələrin hazırlanmasında da yaxından iştirak etmişdir.

O, "Azərbaycan Sovet Ensiklopediyası"nın müxtəlif cildləri üçün onlarla məqalə yazmış, "Böyük Sovet Ensiklopediyası" və "Sovet Tarix Ensiklopediyası" üçün Azərbaycan tarixi və tarixşünaslığı üzrə məqalələr hazırlamışdır.

M.Ə.İsmayılovun başlıca tədqiqat sahəsi XIX-XX əsrin əvvəlləri olumuşdur o, başlıca olaraq Şimali Azərbaycanın bu dövrdəki sosial-iqtisadi və siyasi tarixi üzrə ixtisaslaşmış və püxtələşmiş mükəmməl alimə çevrilmişdir. Lakin heç vaxt Azərbaycan tarixinin istənilən dövrü, istənilən başlıca prinsipial məsələsi onun diqqətindən kənarda qalmamışdır. Tədqiq etdiyi dövrlər və problemlər üzrə hər bir tədqiqatçının tutduğu mövqeyin təkamülü və mükəmməlləşməsi qanunauyğun haldır. Lakin bir məsələ var ki, Mahmud müəllimin onda tutduğu mövqe, müdafiə etdiyi prinsiplər nə dəyişmiş, nə də öz dəyərini itirmişdir. Bu da Azərbaycan xalqının etnogenezisi məsələsidir. Bu məsələdə heç nə və heç bir şey onu tutduğu mövqedən azacıq da olsa kənara çəkilməyə məcbur edə bilməmişdir. Respublika elmi və dövri mətbuatındakı çıxışlarında da, müxtəlif səviyyəli elmi məclislərdə də, ölkənin müxtəlif elmi məktəblərinin yüksək nüfuzlu mütəxəssis alimləri ilə elmi çarpışmalarda da o, Azərbaycanın türkdilli əhalisinin avtoxtonluğunu, Azərbaycan türk dilinin qədimliyi və yerliliyini müdafiə və sübut etmişdir.

Mahmud müəllimin bir sıra sanballı ümumittifaq nəşrlərində əsas müəlliflərdən biri kimi yaxından iştirakı onun ölkə tarixşünaslığında qazandığı yüksək elmi nüfuza dəlalət edir. O, "SSRİ-də tarix elmi - xalq tarixi" (1955), SSRİ EA Etnoqrafiya İnstitutu tərəfindən hazırlanmış "Dünya xalqları" seriyasından olan "Qafqaz xalqları" (M., 1962), "İmperializm dövründə Rusiyanın aqrar quruluşunun xüsusiyyətləri" (M., 1962) və s. əsərlərin yazılışında və tərtibatında yaxından iştirak etmiş, xalqımızın tarixi barədə ümumittifaq oxucusuna və elmi ictimaiyyətə obyektiv informasiya çatdırılması sahəsində xeyli rəngarəng işlər görmüşdür.

*(Davamı var)*